Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu

# İSTİQRAZLAR ÜZRƏ
# BAZA EMİSSİYA PROSPEKTİNİN
# YEKUN ŞƏRTLƏRİ

## № 2

İdarə Heyətinin sədri Fəxri Kazımov

AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU
THE REPUBLIC OF AZERBAIJAN MORTGAGE AND CREDIT GUARANTEE FUND
İKZF

18 noyabr 2022-ci il

# B ə y a n a t

Bu Yekun şərtlər 10 noyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş Baza emissiya prospektinin əlavəsidir və Baza emissiya prospekti ilə birgə oxunmalıdır.

Baza emissiya prospekti Azərbaycan Respublikası Mərkəzi Bankının www.cbar.az, "Bakı Fond Birjası" QSC-nin www.bfb.az və Emitentin www.mcgf.gov.az rəsmi internet səhifələrində açıqlanmışdır.

Bu Yekun şərtlər 10 noyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş Baza emissiya prospekti üzrə istiqrazların ikinci buraxılışıdır.

**İdarə Heyətinin sədri** ____________ **Fəxri Kazımov**
imza

**Maliyyə departamentinin direktoru** ____________ **Fariz Axundov**
imza

AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU
THE REPUBLIC OF AZERBAIJAN MORTGAGE AND CREDIT GUARANTEE FUND
İKZF

# M Ü N D Ə R İ C A T

Xülasə........................................................................................................................ 4

I. İstiqrazlar barədə məlumat....................................................................................... 5

# XÜLASƏ

## Xəbərdarlıqlar

1.1. bu buraxılış Baza emissiya prospektinə əsasən ümumi məbləği 100 mln. manat olan ipoteka istiqrazlarının ikinci buraxılışıdır;

1.2. qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun Baza emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

1.3. Baza emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Baza emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

# I. İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT

## 1. İstiqrazların buraxılışı haqqında yekun şərtlər

**1.1. İstiqrazların növü –** adlı, sənədsiz, faizli təmin edilmiş ipoteka istiqrazları.

**1.2. Təklif edilən istiqrazların sayı və nominal dəyəri –** nominal dəyəri 1 000 (bir min) manat olan 30 000 (otuz min) ədəd.

**1.3. İstiqrazların valyutası –** AZN**.**

**1.4. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

**1.4.1.** istiqraz mülkiyyətçisi istiqrazın tədavül müddəti ərzində Emitentdən Baza emissiya prospekti ilə müəyyən olunmuş müddətdə və qaydada istiqrazlar üzrə ödənişləri (nominal və faiz) almaq;

**1.4.2.** Eyni ipoteka örtüyünə daxil olan aktivlərin hesabına istiqrazlar üzrə ödənilən nominal dəyər və faizlərə münasibətdə Emitentin digər kreditorlarına nisbətən bərabər qaydada üstünlük hüququna malik olmaq (İstiqraz mülkiyyətçilərinin üstünlük hüququ ipoteka örtüyünə daxil olan bütün aktivlərə, o cümlədən həmin aktivlərdən əldə edilən gəlirə eyni dərəcədə aiddir);

**1.4.3.** Emitentin digər ipoteka örtüyünün reyestri ilə İpoteka istiqrazı mülkiyyətçilərinin tələbləri tam ödənildikdən sonra bu reyestrə daxil edilmiş aktivlərin qalıq hissəsi üzərində Emitentin digər kreditorlarına nisbətən bərabər qaydada üstünlük hüququna malik olmaq;

**1.4.4.** İpoteka örtüyü hesabına tələblər tam ödənilmədiyi halda, Emitentin ipoteka örtüyünə daxil edilməyən aktivlərinə münasibətdə Emitentin digər təmin edilməmiş öhdəlikləri üzrə kreditorları ilə bərabər hüquqlara malik olmaq;

**1.4.5.** İstiqrazlarla həyata keçirilən əməliyyatları dayandırmaq və ya özünəməxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün birbaşa Mərkəzi depozitara müraciət etmək;

**1.4.6.** İstiqrazlarla təsdiqlənmiş hüquqları qanunvericilikdə nəzərdə tutulmuş qaydada alqı-satqı əqdləri bağlamaq yolu ilə ötürmək;

**1.4.7.** İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemində qeydiyyata alındığı andan qüvvəyə minir;

**1.4.8.** Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqlar.

Bu hüquqların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər qanunvericiliyə müvafiq surətdə tənzimlənir.

**1.5. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti –** Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq olaraq vaxtaşırı icra edilməli olan öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti 3 il müəyyən edilir.

**1.6. İstiqrazlar üzrə ödənilməli faizlər –** illik 3% (üç faiz).

**1.7. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu** – faiz dərəcəsi müəyyən olunmuşdur.

**1.8. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları –** mövcud deyil.

**1.9. Təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə məlumat:**

- ipoteka örtüyünə daxil olan aktivlərin əsas borc məbləğləri üzrə dəyəri Emitentin ipoteka istiqrazları üzrə ödəməli olduğu ümumi nominal dəyərinin ödənilməmiş hissəsinin 110 faizindən az deyil;
- ipoteka örtüyünün dəyəri ilə bağlı hesablamaya ipoteka örtüyünə daxil edilən hər bir kredit üzrə əsas borcun həmin krediti təmin edən ipoteka predmetinin bazar dəyərinin 80 faizindən çox olmayan hissəsi daxil edilmişdir;
- ipoteka örtüyünə daxil olan aktivlər üzrə faiz ödənişləri ipoteka istiqrazları üzrə faizlərin ödənilməsini təmin edir;
- ipoteka örtüyünə daxil olan ipoteka kreditləri sabit faizlərlə verilmişdir;
- ipoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan ipoteka kreditləri üzrə şərtlər kredit müddəti ərzində əsas borcun və faizlərin aylıq əsasda yalnız pul formasında hissə-hissə ödənilməsini nəzərdə tutur.

**1.10. İstiqrazların geri satın alınmasının şərtləri –** Emitent istiqrazların geri satın alınması öhdəliyini üzərinə götürmür.

**1.11. Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası –** İstiqrazlar üzrə gəlir hər hesablama dövrü üçün hesablanıb ödənilir. Bir istiqraz üzrə faiz gəlirinin məbləği Azərbaycan manatı ilə aşağıda göstərilən düsturla müəyyən edilir:

**Np=P*Nom*180/(360/100),**

*burada,*

**Np** - hesablama dövründə istiqrazlar üzrə hesablanmış faizlərin məbləği;
**P** - istiqrazın illik gəlirlilik dərəcəsinin rəqəmlə ifadəsi;
**Nom** - istiqrazın nominal dəyəri (nominalın ödənilməmiş hissəsi).
Hesablamalar müvafiq il üzrə təqvim günlərinin sayına əsasən aparılır.

Bir istiqraza (birinci ödəniş dövründən sonuncu ödəniş dövrünə qədər, sonuncu ödəniş dövrü də daxil olmaqla) hər bir ödəniş dövrü ərzində hesablanmış faiz gəliri dövr ərzində dövriyyədə olan istiqrazların nominal dəyərinin ödənilməmiş hissəsinə hesablanır. İstiqrazlar üzrə faizlər AZN-lə nağdsız qaydada Emitentin öz hesabına ödənilir. Faiz gəliri Mərkəzi Depozitarın reyestrində qeydə alınan istiqraz mülkiyyətçilərinə ödənilir. İstiqrazlar üzrə faizlərin ödənilmə tarixi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcək. Belə yubanmaya görə faizlər və digər haqlar ödənilmir.

**1.12. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat** - mövcud deyil.

**1.13. İstiqrazların təklif qiyməti məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat –** mövcud deyil.

**1.14. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri –** istiqrazların “Bakı Fond Birjası” QSC-nin (BFB) ticarət sistemində kütləvi təklif vasitəsilə yerləşdirilməsi nəzərdə tutulur.

**1.15. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat –** mövcud deyil.

**1.16. Təklifin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat –** istiqrazların yerləşdirilməsindən əldə olunacaq vəsaitlər Emitentin əhalinin yaşayış sahələri ilə təmin edilməsi üzrə Nizamnamə ilə nəzərdə tutulmuş funksiyaların həyata keçirilməsinə yönəldiləcəkdir.

**1.17. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri –** layihənin maliyyələşdirilməsi yalnız qabaqcadan müəyyənləşdirilmiş məbləğ çərçivəsində aparılır.

**1.18. Əldə olunan vəsaitlərin istifadəsi, digər müəssisələrinin alışını maliyyələşdirmək üçün və ya borcları qaytarmaq, azaltmaq, restrukturizasiya etmək üçün və ya başqa aktivləri əldə etmək üçün istifadə olunması barədə məlumat –** nəzərdə tutulmur.

**1.19. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:**

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM).

Hüquqi ünvanı: AZ 1000, Bakı şəh. Bülbül prospekti 27.

Faktiki ünvanı: Bakı, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A.

**1.20. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi –** illik faiz dərəcəsi 3%.

**1.21. İstiqrazların və faizlərin ödənilmə tarixi və müddəti –** istiqrazlar üzrə ödəniş gününə bir gün qalmış istiqrazlarla bütün növ əməliyyatlar dayandırılır. Emitentin müraciəti əsasında tədavüldə olan istiqrazların mülkiyyətçilərinin siyahısı depozitar tərəfindən istiqrazların ödəniş tarixinə bir gün qalmış Emitentə təqdim edilir və Emitent istiqrazların ödəniş tarixində ödəniləcək məbləği istiqrazların mülkiyyətçilərinin bank hesablarına nağdsız formada köçürür.

İstiqrazların nominal dəyərinin ödənişi Emitentin günahı ucbatından gecikdirildiyi təqdirdə Emitent hər gecikmə günü üzrə gecikdirilən məbləğə 0,03% həcmində cərimə ödəyir.

**İstiqrazların nominal dəyərinin ödənilmə tarixi və müddəti** - istiqrazlar üzrə nominal dəyərin ödənişi Baza emissiya prospektinin III hissəsinin 2.9-cu bəndinə əsasən həyata keçiriləcəkdir. İstiqrazların tədavül müddəti 9360 gündür və son ödəniş tarixi bu Yekun Şərtlərin aid olduğu Baza emissiya prospekti daxilində emissiya edilən istiqrazların ilk yerləşdirilmə tarixindən etibarən 9361-ci gündür. İstiqrazların nominal dəyəri faizlərlə eyni gündə, yəni bu Baza emissiya prospekti daxilində emissiya edilən istiqrazların ilk yerləşdirilmə tarixindən etibarən hər 180 gündə bir, 181-ci təqvim günündə (həmin gün qeyri-iş günü olarsa, növbəti ilk iş günü) ödənilir. İstiqrazların nominal dəyəri (nominalın ödənilməmiş hissəsi) hesablama dövrü ərzində ipoteka örtüyünə daxil olan aktivlər üzrə əsas borcun ödənilmiş məbləğinə bərabər həcmdə ödənilir. İpoteka örtüyündən cəlb edilmiş vəsait investorlar arasında proporsional qaydada bölüşdürülür. İpoteka örtüyündən daxil olan vəsait ipoteka istiqrazlarının nominal dəyərinin (nominalın ödənilməmiş hissəsinin) ödənişi zamanı min manata qədər yuvarlaqlaşdırılır. Yuvarlaqlaşdırmadan qalan qalıq növbəti ödəniş zamanı nəzərə alınır. İpoteka kreditlərinin əsas borcu borcalanlar tərəfindən vaxtından əvvəl ödənildiyi və ya gecikdirildiyi halda ipoteka istiqrazları üzrə əsas borcun son ödəniş tarixi dəmüvafiq qaydada dəyişdirilir.

**İstiqrazlar üzrə faizlərin ödənilmə tarixi və müddəti** - istiqrazlar üzrə illik faiz dərəcəsi 3%-dir. İstiqrazlar üzrə faizlərin ödənişi Baza emissiya prospektinin III hissəsinin 2.9-cu bəndinə əsasən həyata keçiriləcəkdir. İstiqrazlar üzrə faizlər bu Yekun Şərtlərin aid olduğu Baza emissiya prospekti daxilində emissiya edilən istiqrazların ilk yerləşdirilmə tarixindən etibarən hər 180 gündə bir (hesablama dövrü), 181-ci təqvim günündə (həmin gün qeyri-iş günü olarsa, növbəti ilk iş günü) ödəniləcəkdir. İstiqrazlar üzrə faiz məbləği dövriyyədə olan istiqrazların nominal dəyərinin ödənilməmiş hissəsinə hesablanır.

| № | İstiqrazların və faizlərin ödəniş dövrü | **İstiqrazların və faizlərin ödəniş *müddəti*** *(müddətlər istiqrazların ilk buraxılışının yerləşdirilmə tarixindən hesablanır)* | **İstiqrazların və faizlərin ödəniş günü** |
|---|---|---|---|
| **1.** | Birinci ödəniş | 0 – 180-ci təqvim günü | 181-ci təqvim günü |
| **2.** | İkinci ödəniş | 181 – 360-cı təqvim günü | 361-ci təqvim günü |
| **3.** | Üçüncü ödəniş | 361 – 540-cı təqvim günü | 541-ci təqvim günü |
| **4.** | Dördüncü ödəniş | 541 - 720-ci təqvim günü | 721-ci təqvim günü |
| **5.** | Beşinci ödəniş | 721 - 900-cü təqvim günü | 901-ci təqvim günü |
| **6.** | Altıncı ödəniş | 901 - 1080-ci təqvim günü | 1081-ci təqvim günü |
| **7.** | Yeddinci ödəniş | 1081 - 1260-cı təqvim günü | 1261-ci təqvim günü |
| **8.** | Səkkizinci ödəniş | 1261 - 1440-cı təqvim günü | 1441-ci təqvim günü |
| **9.** | Doqquzuncu ödəniş | 1441 - 1620-ci təqvim günü | 1621-ci təqvim günü |
| **10.** | Onuncu ödəniş | 1621 - 1800-cü təqvim günü | 1801-ci təqvim günü |
| **11.** | On birinci ödəniş | 1801 - 1980-ci təqvim günü | 1981-ci təqvim günü |
| **12.** | On ikinci ödəniş | 1981 - 2160-cı təqvim günü | 2161-ci təqvim günü |
| **13.** | On üçüncü ödəniş | 2161 - 2340-cı təqvim günü | 2341-ci təqvim günü |
| **14.** | On dördüncü ödəniş | 2341 - 2520-ci təqvim günü | 2521-ci təqvim günü |
| **15.** | On beşinci ödəniş | 2521 - 2700-cü təqvim günü | 2701-ci təqvim günü |
| **16.** | On altıncı ödəniş | 2701 - 2880-ci təqvim günü | 2881-ci təqvim günü |
| **17.** | On yeddinci ödəniş | 2881 - 3060-cı təqvim günü | 3061-ci təqvim günü |
| **18.** | On səkkizinci ödəniş | 3061 - 3240-cı təqvim günü | 3241-ci təqvim günü |
| **19.** | On doqquzuncu ödəniş | 3241 - 3420-ci təqvim günü | 3421-ci təqvim günü |
| **20.** | İyirminci ödəniş | 3421 - 3600-cü təqvim günü | 3601-ci təqvim günü |
| **21.** | İyirmi birinci ödəniş | 3601 - 3780-ci təqvim günü | 3781-ci təqvim günü |
| **22.** | İyirmi ikinci ödəniş | 3781 - 3960-cı təqvim günü | 3961-ci təqvim günü |
| **23.** | İyirmi üçüncü ödəniş | 3961 - 4140-cı təqvim günü | 4141-ci təqvim günü |
| **24.** | İyirmi dördüncü ödəniş | 4141 - 4320-ci təqvim günü | 4321-ci təqvim günü |
| **25.** | İyirmi beşinci ödəniş | 4321 - 4500-cü təqvim günü | 4501-ci təqvim günü |
| **26.** | İyirmi altıncı ödəniş | 4501 - 4680-ci təqvim günü | 4681-ci təqvim günü |
| **27.** | İyirmi yeddinci ödəniş | 4681 - 4860-cı təqvim günü | 4861-ci təqvim günü |

| | | | |
|---|---|---|---|
| **28.** | İyirmi səkkizinci ödəniş | 4861 - 5040-cı təqvim günü | 5041-ci təqvim günü |
| **29.** | İyirmi doqquzuncu ödəniş | 5041 - 5220-ci təqvim günü | 5221-ci təqvim günü |
| **30.** | Otuzuncu ödəniş | 5221 - 5400-cü təqvim günü | 5401-ci təqvim günü |
| **31.** | Otuz birinci ödəniş | 5401 - 5580-ci təqvim günü | 5581-ci təqvim günü |
| **32.** | Otuz ikinci ödəniş | 5581 - 5760-cı təqvim günü | 5761-ci təqvim günü |
| **33.** | Otuz üçüncü ödəniş | 5761 - 5940-cı təqvim günü | 5941-ci təqvim günü |
| **34.** | Otuz dördüncü ödəniş | 5941 - 6120-ci təqvim günü | 6121-ci təqvim günü |
| **35.** | Otuz beşinci ödəniş | 6121 - 6300-cü təqvim günü | 6301-ci təqvim günü |
| **36.** | Otuz altıncı ödəniş | 6301 - 6480-ci təqvim günü | 6481-ci təqvim günü |
| **37.** | Otuz yeddinci faiz ödənişi | 6481-6660-cı təqvim günü | 6661-ci təqvim günü |
| **38.** | Otuz səkkizinci faiz ödənişi | 6661-6840-cı təqvim günü | 6841-ci təqvim günü |
| **39.** | Otuz doqquzuncu faiz ödənişi | 6841-7020-ci təqvim günü | 7021-ci təqvim günü |
| **40.** | Qırxıncı faiz ödənişi | 7021-7200-cü təqvim günü | 7201-cü təqvim günü |
| **41.** | Qırx birinci faiz ödənişi | 7201-7380-ci təqvim günü | 7381-ci təqvim günü |
| **42.** | Qırx ikinci faiz ödənişi | 7381-7560-cı təqvim günü | 7561-cı təqvim günü |
| **43.** | Qırx üçüncü faiz ödənişi | 7561-7740-cı təqvim günü | 7741-ci təqvim günü |
| **44.** | Qırx dördüncü faiz ödənişi | 7741-7920-ci təqvim günü | 7921 təqvim günü |
| **45.** | Qırx beşinci faiz ödənişi | 7921-8100-cü təqvim günü | 8101-ci təqvim günü |
| **46.** | Qırx altıncı faiz ödənişi | 8101-8280-ci təqvim günü | 8281-ci təqvim günü |
| **47.** | Qırx yeddinci faiz ödənişi | 8281-8460-cı təqvim günü | 8461-ci təqvim günü |
| **48.** | Qırx səkkizinci faiz ödənişi | 8461-8640-cı təqvim günü | 8641-ci təqvim günü |
| **49.** | Qırx doqquzuncu faiz ödənişi | 8641-8820-ci təqvim günü | 8821-ci təqvim günü |
| **50.** | Əllinci faiz ödənişi | 8821-9000-ci təqvim günü | 9001-ci təqvim günü |
| **51** | Əlli birinci faiz ödənişi | 9001-9180-ci təqvim günü | 9181-ci təqvim günü |
| **52** | Əlli ikinci faiz ödənişi | 9181-9360-cı təqvim günü | 9361-ci təqvim günü |

**1.22. Ödənişlər üzrə hesablaşma agentinin adı** - ipoteka istiqrazları üzrə ödənişlər birbaşa Emitent tərəfindən aparılacaqdır.

**1.23. İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı -** Emitentin İdarə Heyətinin 18 noyabr 2022-ci il tarixli 29-2022 nömrəli qərarı.

**1.24. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri**:

İstiqrazların buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra 30 gün ərzində Emitent tərəfindən hərracın keçirilmə tarixi, yerləşdirilmənin başlama və başa çatma tarixləri elan ediləcək. Yerləşdirmə bazar konyukturundan asılı olaraq yeddi günədək davam

edə bilər.

Buraxılış barədə detallı məlumatı, qiymətli kağızların nominal həcmi, satış qiymətivə tədavül müddəti qeyd olunmaqla, BFB-nin və Emitentin rəsmi internet səhifələrində elan ediləcəkdir.

1.25. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası** - "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən Emissiya prospektində dəyişikliklər barədə qərarı Emitentin ipoteka istiqrazlarının emissiyası haqqında qərarı qəbul etmiş orqanı qəbul edir. Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 iş günü ərzində dövlət qeydiyyatına alınır. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 iş günü ərzində vahid məlumat resursunda, BFB-nin və Emitentin rəsmi internet səhifələrində açıqlanır və açıqlandığı tarixdən 15 iş günü bitdikdən sonra qüvvəyə minir.

1.26. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:**

Təklif "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

1.27. **İstiqrazlara abunə yazılışı barədə məlumat** - nəzərdə tutulmamışdır.

1.28. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası**:

Hərrac BFB-nin ticarət sistemində həyata keçiriləcək. Sifarişlər təklifdən çox olduqda, sifarişlər proporsional qaydada təmin ediləcəkdir.

1.29. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası -** istiqrazların alınması köçürmə yolu ilə anderrayter vasitəsilə həyata keçirilir. Müştəri tərəfindən hesab üzrə sərəncam verildiyi andan investisiya şirkəti müştərinin "depo" hesabında mövcud olan və həmin sərəncamda göstərilən qiymətli kağızlar barədə məlumat və mülkiyyət hüququnu təsdiq edən sənəd almaq hüququna malikdir.

1.30. **İstiqrazların yerləşdirilməsinin başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və yerləşdirmənin xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat -** yerləşdirmə barədə investorlar Emitentin və BFB-nin rəsmi internet saytında yerləşdirilən elan və ya elektron poçt vasitəsilə məlumatlandırılacaqlar.

1.31. **İstiqrazların təklif qiyməti -** istiqrazlar cari bazar qiyməti ilə təklif ediləcək. İstiqrazların cari bazar qiyməti istiqrazların nominalı (1000 (bir min) manat) və yerləşdirmə tarixinədək hesablanmış faiz gəlirinin cəminə bərabərdir. İstiqrazlar üzrə faiz gəlirinin hesablanması qaydası bu hissənin 1.11-ci bəndində qeyd olunub.

1.32. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği -** İstiqraz mülkiyyətçilərinin istiqrazlar üzrə faiz gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123-cü maddəsinə müvafiq olaraq vergi tutulur.

1.33. **İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı) və xidmət haqqı:**

Öhdəlik götürmədən yerləşdirən anderrayter:

Tam adı: : "Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti

Qısaldılmış adı: "Unicapital İnvestisiya Şirkəti" ASC

Hüquqi ünvan: Bakı şəh.,R.Behbudov küç., 55, məh.384

Telefon: (012) 541 33 33

E-mail: info@unicapital.az

VÖEN: 1401258741

Lisenziyalar: İnvestisiya şirkəti, 08.01.2016-cı il tarixli 087910 saylı lisenziyası əsasında broker, anderraytinq (diler), marja ticarəti (forex), fərdi investorların portfelinin idarə edilməsi, market meykerlik və sair investisiya xidmətləri üzrə fəaliyyət göstərməkdədir.

Xidmət haqqı: 100 (bir yüz) manat.

**1.34. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat -** istiqrazlar BFB-də hərrac vasitəsi ilə yerləşdirilir.

**1.35. Marketmeyker(lər) barədə məlumat** - mövcud deyil.

**1.36. Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri -** “Fitch Ratings” reytinq agentliyi Emitentin uzunmüddətli kredit reytinqini 25 noyabr 2021-ci il tarixində “BB+” olaraq təsdiqləyib.